Vətən bölünməzdir!

LƏNKƏRAN

İCTİMAİ-SİYASİ QƏZET

№ 21-22 (8377) ◉ Cümə, 16 iyun 2017-ci il ◉ Qəzetin əsası 1931-ci ildə qoyulmuşdur ◉ Qiyməti 50 qəpik

Lənkəran şəhərində çoxmənzilli binaların əsaslı təmiri və bərpası ilə bağlı əlavə tədbirlər haqqında

Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Lənkəran şəhərində qəzalı vəziyyətdə olan 13 çoxmənzilli binada əsaslı təmir və bərpa işlərinin həyata keçirilməsi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Lənkəran Şəhər İcra Hakimiyyətinə 7,5 milyon (yeddi milyon beş yüz min) manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 7 iyun 2017-ci il.

15 İYUN-MİLLİ QURTULUŞ GÜNÜ LƏNKƏRANDA TƏNTƏNƏ İLƏ QEYD EDİLDİ

Milli Qurtuluş günü ölkəmizin hər yerində olduğu kimi, Lənkəranda da təntənə ilə qeyd edilib. Bu münasibətlə iyunun 15-də Heydər Əliyev xatirə parkında şəhər ictimaiyyəti nümayəndələrinin iştirakı ilə Ulu Öndərin abidəsi ziyarət olunub və önünə tər gül-çiçək dəstələri qoyulub.

Həmin gün Heydər Əliyev Mərkəzində Milli Qurtuluş gününə həsr olunmuş konfrans keçirilib.

İcra başçısı Taleh Qaraşov konfransı açaraq Milli Qurtuluş gününün Azərbaycan xalqının taleyində oynadığı misilsiz rolu barədə ətraflı məlumat verib.

Natiq həmin günün Ulu Öndər Heydər Əliyevin

yenidən siyasi hakimiyyətə qayıdaraq dövlət müstəqilliyini məhv olmaqdan xilas etdiyi tarixi an olduğunu diqqətə çatdırıb.

İcra başçısı çıxışında Ümummilli Liderin parlaq dühası ilə qurulmuş və cənab Prezident İlham Əliyevin müdrik səyləri ilə sürətlə inkişaf edib gündən-günə qüdrətlənən müstəqil və azad Azərbaycan dövlətinin hər bir ölkə vətəndaşı üçün qürur mənbəyi olduğunu vurğulayıb. Eyni zamanda o, 1993-cü ilin 15 İyun-Milli Qurtuluş günündən ötən müddət ərzində Azərbaycanın hər yeri kimi Lənkəran şəhərinin də sürətlə inkişaf etdiyini, həm Ümummilli Lider Heydər Əliyevin, həm də cənab Prezident İlham Əliyevin diqqət və qayğısı ilə rayonun sosial-iqtisadi və mədəni həyatında köklü dəyişikliklərin, bütün sahələrdə inkişafın baş verdiyini və bu gün də bu inkişafın davam etdiyini bildirib.

Sonra İcra başçısının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Rasilə Əliyeva məruzə edib, məruzə ətrafında çıxışlar olub.

Həmin gün şəhər Mədəniyyət Mərkəzinin tamaşa salonunda incəsənət kollektivlərinin iştirakı ilə bayram konserti olub. Konsertdə Ulu Öndərə və Vətən sevgisinə həsr olunmuş musiqi nümunələri tamaşaçılar tərəfindən sürəkli alqışlarla qarşılanıb.



BMT-nin rezident əlaqələndiricisi Lənkəranda

Səh. 2

Səh. 3
Lənkəranda Uşaqların Beynəlxalq Müdafiəsi Günü

"Gender zorakılığına yox deyək" mövzusunda konfrans

Səh. 4

Səh. 5
Aqrar sahənin inkişafı diqqət mərkəzindədir

LDU-da açıq qapı günü və məzun yarmarkası keçirilib

Səh. 7

BMT-NİN REZİDENT ƏLAQƏLƏNDİRİCİSİ LƏNKƏRANDA

İyunun 7-də Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycandakı rezident-əlaqələndiricisi Qulam İshaqzai Lənkəranda olub.

Tanışlıq məqsədi daşıyan səfər zamanı BMT nümayəndəsi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşovla görüşüb. Görüşdə qonağa Lənkəran rayonunun sosial-iqtisadi və mədəni həyatı barədə ətraflı məlumat verilib, BMT ilə Azərbaycanın əməkdaşlıq münasibətləri, xüsusilə kənd təsərrüfatı və turizm sahəsi üzrə yeni proqramların hazırlanması sahəsində əməkdaşlığın gələcək perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Səfəri müddətində BMT nümayəndəsi Lənkəran şəhərinin görməli yerləri ilə tanış olub, Tarix-diyarşünaslıq muzeyinə baş çəkib, "Yaşıl çay" fermer təsərrüfatının çay plantasiyaları və Girdəni kəndi ərazisində çəltik əkini işləri ilə maraqlanıb.

Həmin gün qonaq Bakıya yola düşüb.

MEKSİKA SƏFİRİ LƏNKƏRANDA

Meksikanın Azərbaycandakı səfiri Xuan Rodrigo Labardini Flores Lənkəran rayonuna səfər edib.

Diplomat səfər çərçivəsində Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov tərəfindən qəbul edilib.

İcra başçısı səfirə rayonun tarixi, mədəniyyəti, coğrafi mövqeyi və sosial-iqtisadi həyatı barədə ətraflı məlumat verib.

Səfir Meksika-Azərbaycan dostluq və əməkdaşlıq əlaqələrinin inkişafından razı qaldığını və bu əlaqələrin daha da möhkəmlənməsi arzusunda olduğunu diqqətə çatdırıb. O, əlaqələrin genişləndirilməsi məqsədilə Lənkəran şəhəri ilə Meksika şəhərlərindən birinin qardaşlaşması üçün çalışacağını söyləyib.

Xuan Rodrigo Labardini Flores Lənkərana işgüzar səfəri çərçivəsində bölgənin yeganə ali təhsil ocağı olan Lənkəran Dövlət Universitetinə (LDU) baş çəkib. Hörmətli qonağı LDU-nun rektoru vəzifəsini icra edən, professor Natiq İbrahimov qarşılayıb. Professor N.İbrahimov səfirin bu təhsil ocağına gəlişindən bütün kollektivin məmnun olduğunu deyib və hörmətli qonağa 25 illik tarixi olan LDU barədə ətraflı məlumat verib. Universitetin beynəlxalq əlaqələrə daim önəm verdiyini deyən professor Natiq İbrahimov LDU ilə Türkiyə, Rusiya, Şərqi və Qərbi Avropa ölkələrinin ali məktəbləri arasında son illərdə yaranan dostluq əlaqələrindən söz açıb.

Ətraflı məlumata və yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirən Meksika səfiri Azərbaycanla təmsil etdiyi ölkəsi arasında son illərdə yaranan mədəni və iqtisadi əlaqələrdən danışıb, bu əlaqələrin hər iki dövlətin və xalqın mənafeyinə xidmət etdiyini söyləyib. Azərbaycanın bölgələri, xüsusən Lənkəranla iqtisadi və mədəni sferada əlaqələrin qurulmasında maraqlı olduğunu deyən səfir bu işdə LDU-nun önəmli rol oynaya biləcəyini xüsusi vurğulayıb. Universitetlə ilk tanışlığın onda xoş, müsbət hisslər doğurduğunu deyən Meksika rəsmisi gələcəkdə bu təhsil müəssisəsi ilə ölkəsindəki ali məktəblərin birgə elmi və tələbə mübadiləsinin səmərəli ola biləcəyini bildirib. Professor Natiq İbrahimov hörmətli qonağın dediklərinə şərik çıxıb və görüş zamanı gələcəkdə elmi-təcrübi əməkdaşlığın bütün mümkün istiqamətləri birgə müzakirə edilib.

Səmimi görüşdən xatirə kimi LDU rəsmisi, professor Natiq İbrahimov universitet tələbəsinin cənub təbiətini əks etdirən rəsm əsərini hörmətli qonağa hədiyyə edib.

Diqqətə görə minnətdarlıq bildirən səfir universitetin xatirə kitabına ürək sözlərini yazıb: "Yeni nəsil burada formalaşır. Universitet gələcəyin məkanıdır. Ölkələrin inkişafını elmin inkişafı təmin edir. Bu görüş Meksika ilə Azərbaycan arasında çoxşaxəli əlaqələr üçün bir cığır olacaq".

Meksikanın Azərbaycandakı səfiri Xuan Rodrigo Labardini Flores daha sonra Lənkəran Dövlət Dram Teatrında olub.

Hörmətli qonaq kollektivin yaradıcılıq uğurları və qarşıdakı planları barədə məlumatlandırılıb. Bildirilib ki, iki il öncə teatr qazandığı uğurlara görə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Aparıcı teatr" statusuna layiq görülüb və nəticə etibarı ilə işçilərin əmək haqqı 25 faizdən çox artırılıb. Yaradıcı kollektiv son dövrlərdə nüfuzlu sənət yarışmalarında, o cümlədən Şəkidə keçirilən I Beynəlxalq Teatr Festivalında, İranın Tehran şəhərində keçirilən Beynəlxalq Fəcr Teatr Festivalında iştirak etməklə diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıb. Məlumat verilib ki, Lənkəran teatrı cari ildə qonşu İran İslam Respublikasına və Qazaxıstana qastrol səfərlərinə getməyi planlaşdırıb. Hazırda teatrda paralel olaraq bir neçə səhnə əsərinin məşqləri aparılır.

Səfir Xuan Rodrigo Labardini Flores Meksika-Azərbaycan münasibətlərində mədəni əlaqələrin vacib rolunu qeyd edib. O, teatrın foyesində asılmış foto-sərgilərlə tanış olub, ayrılarkən yaradıcı kollektivə çətin və şərəfli fəaliyyətində müvəffəqiyyətlər arzulayıb.

Səfər müddətində həmçinin Lənkəranın gəzməli-görməli yerləri ilə də tanış olan Meksika səfiri həmin gün Bakıya qayıdıb.

A.BABAYEV,
Foto - Ə.Bədəlov

Yeni təyinatlar



Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH) başçısının 31 may 2017-ci il tarixli əmri ilə Babayev Möhübbət Hacıbaba oğlu İcra başçısının birinci müavini təyin olunub.

M.Babayev 1959-cu ildə Lənkəran rayonunun Gərmətük qəsəbəsində anadan olub. 1985-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirib. Həmin ildən əmək fəaliyyətinə başlayaraq Yuxarı Xanbulançay Hidroqovşağı İstismarı İdarəsində mühəndis-mexanik, mühəndis-dispetçer, böyük mühəndis-hidrotexnik, mühəndis-hidrotexnik, 1989-cu ildən Bəhrəmtəpə Hiqroqovşağında nəzarətçi-müfəttiş, 1992-ci ildən Lənkəran Su Təsərrüfatı Hövzə Birliyində aparıcı mühəndis-hidrotexnik, 1993-cü ildən Sudan İstifadə Şöbəsinin rəisi, Sudan İstifadəyə Nəzarət İdarəsinin müfəttiş qrupunun rəhbəri, 1995-ci ildən Lənkəran Su Kəmərləri İdarəsinin rəisi, 2000-ci ildən Yuxarı Xanbulançay Hidroqovşağı İstismarı İdarəsinin rəisi, 2008-ci ildən Lənkəran ŞİH başçısının müavini – Şəhər təsərrüfatı şöbəsinin müdiri vəzifələrində çalışıb.

1993-cü ildən YAP üzvü, 2017-ci ildən YAP Lənkəran şəhər təşkilatının sədri vəzifəsini icra edir.

Hidromeliorasiya sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə 2007-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunub.

Evlidir, 3 övladı və 3 nəvəsi var.

Lənkəran ŞİH başçısının 5 iyun 2017-ci il tarixli əmri ilə İbrahimov Elşad Paşa oğlu İcra başçısının müavini - Şəhər təsərrüfatı şöbəsinin müdiri təyin olunub.

E.İbrahimov 1963-cü ildə Lənkəran şəhərində anadan olub. 1989-cu ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirib. Əmək fəaliyyətinə 1984-cü ildən Lənkəran Su tikinti trestinin 8 sayl tikinti-quraşdırma idarəsində fəhlə kimi başlayıb. 1987-ci ildən Sənaye müəssisələri trestinin 9 saylı Sənaye kombinatında briqadir, usta, 1995-ci ildən Sumqayıt şəhərində ictimai iaşə müəssisəsinin müdiri, 2000-ci ildən Dövlət Əmlak Komitəsinin ticarət və xidmət müəssisə və obyektlərinin əlaqələndirilməsi mərkəzinin Lənkəran şöbəsi üzrə mütəxəssisi, Lənkəran material-texniki ehtiyatların komplektləşdirilməsi üzrə zona müəssisəsində iş icraçısı, 2009-cu ildən "Memar M" MMC-nin direktoru, 2011-ci ildən "İnşaat layihə" MMC-də, 2014-cü ildən "Memar S" MMC-də mütəxəssis, Lənkəran ŞİH-də memarlıq və tikinti şöbəsinin müdiri – baş memar vəzifələrində çalışıb.

2008-ci ildən YAP-ın üzvüdür. Ailəlidir, iki övladı var.

Lənkəran ŞİH başçısının 5 iyun 2017-ci il tarixli əmri ilə Əsədullayev Elman Tofiq oğlu İcra başçısı aparatının Memarlıq və tikinti şöbəsinin müdiri – Baş memar təyin olunub.

E.Əsədullayev 1969-cu ildə Lənkəran rayonunun Gərmətük qəsəbəsində anadan olub. 1992-ci ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunu bitirib. 1992-ci ildən Yuxarı Xanbulançay Hidroqovşağında sahə rəisi kimi əmək fəaliyyətinə başlayıb. 2002-ci ildən Azərbaycan Respublikası Kənd Təsərrüfatı Özəl Birliyinin İnkişafına Yardım Agentliyində özəlləşdirmə üzrə mütəxəssis, 2006-cı ildən Dövlət Reyestr Xidmətinin Lənkəran Ərazi İdarəsində baş mühəndis, 2009-cu ildən Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestr Xidmətinin 10 saylı idarəsində baş mühəndis, 2015-ci ildən "GMC consulting" MMC-də mühəndis vəzifələrində çalışıb.

2000-ci ildən YAP üzvüdür. Evlidir, iki övladı var.

İŞGÜZAR GÖRÜŞ

İyunun 8-də Azərbaycan Kənd İnvestisiya layihəsinin (AzkİL) donor tərəfdaşı olan Dünya Bankının AzkİL 3 layihəsi üzrə tapşırıq meneceri Satoşi İşihara, Dünya Bankının sosial inkişaf üzrə baş mütəxəssisi Tara Şarafuheen, AzKİL-in icma inkişafı meneceri Gülbəniz Qəmbərova və layihənin proqram mütəxəssisi Fəridə Eminova Lənkəranda olublar.

Qonaqlar Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov tərəfindən qəbul edilib. Qəbul zamanı layihə çərçivəsində rayonda həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparılıb. İcra başçısı layihə çərçivəsində görülmüş işləri, kəndara yollarının əsaslı təmiri, ucqar kəndlərdə məktəblər üçün əlavə korpusların, tibb məntəqələrinin tikintisi ilə bağlı həyata keçirilən layihələrin əhəmiyyətini yüksək dəyərləndirərək təşkilatın fəaliyyətindən razılığını ifadə edib. Görüşdə həmçinin gələcək əməkdaşlıq üçün mövcud olan imkanlar müzakirə olunub və kəndlərin sosial-iqtisadi inkişafı baxımından daha əhəmiyyətli olan yeni layihə və proqramların hazırlanıb qarşılıqlı əməkdaşlıq şəraitində icrası qərara alınıb.

LƏNKƏRANDA UŞAQLARIN BEYNƏLXALQ MÜDAFİƏSİ GÜNÜ TƏNTƏNƏ İLƏ QEYD EDİLDİ

1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü respublikamızın hər yerində olduğu kimi, Lənkəranda da təntənə ilə qeyd olundu.

Lənkəran Mədəniyyət Mərkəzində şəhər İcra hakimiyyətinin təşəbbüsü ilə keçirilən tədbirdə ümumtəhsil məktəblərinin rəhbərləri, müəllimləri, şagirdləri, məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri, tərbiyəçiləri, uşaqlar və rayon ictimaiyyətinin nümayəndələri iştirak edirdi.

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Rasilə Əliyeva və digər rəsmi şəxslər Mədəniyyət Mərkəzinin foyesində açılmış uşaqların əl işlərindən ibarət sərgi ilə tanış oldular.

Daha sonra tədbirdə ümumtəhsil və musiqi məktəbləri, məktəbəqədər təhsil müəssisələrinin şagird və uşaq kollektivlərinin iştirakı ilə hazırlanmış bayram konserti nümayiş olundu.

Konsertdən sonra Ulu Öndər Heydər Əliyevin və cənab Prezident İlham Əliyevin uşaqlarla görüşünü əks etdirən video-çarx nümayiş etdirildi.

MUSİQİLİ TEATR LƏNKƏRANDA "HƏRƏNİN ÖZ ULDUZU" TAMAŞASI İLƏ ÇIXIŞ EDİB

Mayın 31-də Azərbaycan Dövlət Musiqili Teatrı Lənkəranda qastrol səfərində olub.

Yaradıcı kollektiv şəhər Mədəniyyət Mərkəzinin səhnəsində Süleyman Ələsgərov və İsi Məlikzadənin "Hərənin öz ulduzu" tamaşası ilə çıxış edib. Kənd mədəniyyət klublarının birində baş verən hadisələrdən bəhs edən, satira və yumor dolu bu səhnə əsərində əsas rolları Xalq artisti Fatma Mahmudova, Əməkdar artist Novruz Qartal, aktyorlardan Nadir Xasıyev, Gülcahan Salamova, Möylə Mirzəliyev, Rəsmiyyə Nurməmmədova, Elxan İsmayılov və Nigar Qarayeva ifa ediblər.

Qeyd edək ki, anşlaqla keçən tamaşanı 500-ə yaxın sənətsevərlə yanaşı, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, İcra aparatının məsul işçiləri, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri də izləyiblər.

LƏNKƏRAN ŞƏHƏR HEYDƏR ƏLİYEV MƏRKƏZİNDƏ 1 İYUN - UŞAQLARIN BEYNƏLXALQ MÜDAFİƏSİ GÜNÜ İLƏ BAĞLI TƏDBİR

İyunun 1-də Heydər Əliyev Mərkəzində Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı "Uşaqlar dünyanın ən böyük sərvətidir" adlı tədbir keçirilib. Məktəb və məktəbəqədər təhsil müəssisələrinin, uşaq kollektivlərinin iştirak etdiyi tədbirdə qeyd edilib ki, bu gün ölkəmizdə uşaq və yeniyetmələrə, gənclərə göstərilən diqqət və qayğı, onlara yaradılan hərtərəfli şərait dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Dahi şəxsiyyət Heydər Əliyev vaxtilə uşaqların təhsilinə, onların savadlı və cəmiyyət üçün yararlı olmalarına çalışmışdır. Bu gün onun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev dahi şəxsiyyətin xeyirxah ənənələrini uğurla davam etdirir.

Daha sonra tədbirdə Mərkəzin rəsm studiyasının uşaqlarının rəsm əsərləri nümayiş olunub.

Tədbir Mərkəzin rəqs kursunun ansamblının ifaları ilə davam edib.

"GENDER ZORAKILIĞINA YOX DEYƏK" MÖVZUSUNDA KONFRANS

İyunun 2-də Heydər Əliyev Mərkəzində Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı aparatında yaradılmış "Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə" monitoring qrupunun təşkilatçılığı ilə "Gender zorakılığına yox deyək" mövzusunda konfrans keçirilib. Konfransda Lənkəran Şəhər İcra Hakimiyyəti başçısı aparatının rəsmiləri, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların, ictimai birliklərin və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edib.

Konfransı giriş sözü ilə İcra başçısının müavini – İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Rasilə Əliyeva açıb. R.Əliyeva ailə-məişət məsələlərinin, gender problemlərinin müasir dünyada aktual məsələ olduğunu, bunların həllindən ötrü ölkədə dövlət səviyyəsində ciddi işlərin aparıldığını, müvafiq qanunvericilik bazasının yaradıldığını, təbliğat-maarifləndirmə işlərinin aparıldığını, o cümlədən Lənkəran rayonunda da sözügedən məsələ ilə bağlı tədbirlərin görüldüyünü diqqətə çatdırıb.

Sonra mövzu üzrə məruzələr dinlənilib və çıxışlar olub.

LƏNKƏRANDA "NAĞILLARA SƏYAHƏT" ADLI SOSİAL LAYİHƏNİN TƏQDİMATI KEÇİRİLİB

Kapital Bank 1 iyun – Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar "Nağıllara səyahət" adlı sosial layihə təşkil edib. Layihə çərçivəsində ölkənin bir sıra şəhərlərində uşaqlar üçün pulsuz teatr tamaşaları nümayiş olunub.

Lənkəran Dövlət Dram Teatrında azyaşlı sənətsevərlər Ələsgər Qurbanovun "Ceyranın ad günü" tamaşasına baxıblar.

Maraqla izlənilən səhnə əsərinin quruluşçu rejissoru Tərlan Abdullayev, quruluşçu rəssamı Tərlan Sadıqov, musiqi tərtibatçısı Fərahim Fərəcovdur. Tamaşada rolları Əməkdar artist Sücəddin Mirzəyev, artistlərdən Qızılgül Quliyeva, Emin Fərzullayev, Səyyad Əliyev, Təranə Fərəcova, Şəbnəm Hüseynova, Günel Abbaszadə, Aysel Cahangirli və digərləri ifa ediblər.

Tamaşadan sonra Kapital Bank tərəfindən uşaqlara müxtəlif hədiyyələr verilib.

LƏNKƏRANIN ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ SON ZƏNG ÇALINDI

İyunun 14-də respublikamızın hər yerində olduğu kimi, rayonumuzun ümumtəhsil məktəblərində də növbəti dərs ilinin başa çatdığını bildirən son zəng çalındı. On bir il bundan əvvəl titrək addımlarla məktəb astanasına qədəm qoyan onbirincilər bu gün məktəb illərinə "əlvida" dedilər. Son zəng münasibətilə məktəblərimizdə keçirilən tədbirlərdə məzunlar, müəllimlər, məktəb rəhbərləri, valideynlər, habelə yerli icra orqanlarının nümayəndələri də iştirak edərək, son zəngin sevincini birgə yaşadılar.

Onu da bildirək ki, hazırda rayonumuzda 89 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Onların 72-si tam orta, 14-ü ümumi orta, 3-ü isə ibtidai məktəblərdir.

2016-2017-ci tədris ilində rayonumuzda 1798 nəfər 11-ci sinifləri, 2217 nəfər isə 9-cu sinifləri bitirib.

Məzunların buraxılışına həsr olunmuş "Son zəng" tədbirində çıxış edən onbirincilər bu müddət ərzində onların qayğısını, zəhmətini çəkən, elmin sirlərini səylə, səbrlə öyrədən, onların hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi formalaşmasına çalışan müəllimlərə və valideynlərə minnətdarlıqlarını bildirərək, Azərbaycanımıza, doğma yurda, el-obaya layiqli vətəndaş olmalarına söz veriblər.

Son zəng tədbirlərində çıxış edən qonaqlar və rəsmilər də məzunları əlamətdar gün münasibətilə təbrik edərək, onlara uğurlar arzulamış, Azərbaycanın bundan sonra da hərtərəfli inkişafı və çiçəklənməsi işinə öz layiqli töhfələrini verəcəklərinə əmin olduqlarını ifadə ediblər.

Natiqə AĞAYEVA

İSLAM HƏMRƏYLİYİ AZƏRBAYCANDA REALLIĞA ÇEVRİLİR

Həm 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi ili" elan edilməsi, həm də IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi hər bir ziyalının bu dəyərlərə önəm verməsini zəruri edir. İndi qələmə aldığımız bu sətirlər məhz həmin zərurətdən yarandı.

İslam həmrəyliyi düşüncə tərzindən, məzhəbindən asılı olmayaraq, bütün müsəlmanların birliyinə xidmət edən anlayışdır. Həmrəy olmaq özündə İslamın ana qaynağı hesab edilən müqəddəs Qurani-Kərimin bütün ayələrini və peyğəmbərin (s.) həyatını əks etdirir. Qurani-Kərimin Ali-İmran surəsinin 105-ci ayəsində də həmrəyliyin açıq təzahürü görünür. Ayədə ixtilaf və düşmənçilik salanlar vəd olunmuş mükafatdan kənar qalmaqla yanaşı, onları gözləyən əzabdan xəbərdar edilirlər. Belə ki, ayədə deyilir: "Açıq-aşkar dəlillər gəldikdən sonra bir-birindən ayrılan və ixtilaf törədən şəxslər kimi olmayın! Onlar böyük bir əzaba düçar olacaqlar!".

İslam Peyğəmbəri (s.) daim müsəlmanları birlik və bərabərliyə dəvət etmişdir. O, Mədinədə müsəlman icmasını yaratdıqdan sonra gördüyü ilk işlərdən biri də müsəlmanlar arasında qardaşlıq əhdinin bağlanması olmuşdur. Qardaşlıq əhdi zamanı hər bir məkkəli mədinəli ilə din qardaşı hesab edildi. Belə ki, peyğəmbərin (s) əmri ilə Əbu Bəkr – Xaricə bin Zuheyrlə, Ömər bin Xəttab – Ətəban bin Maliklə, Osman bin Əffan – Avs bin Sabitlə qardaş oldular. İslam peyğəmbəri (s.) isə özü ilə Əli bin Əbu Talib arasında qardaşlıq əhdi bağlamışdı.

Həmçinin, İslam peyğəmbəri (s.) müsəlmanlara həmrəylik, vəhdət, birlik və bərabərlik prinsiplərini aşılamaqla yanaşı, ümmət anlayışını da əsas tutmuşdur. Bu prinsiplər İslam aləminin inkişafına xidmət edən ən böyük töhfədir. Bunu yalnız yuxarıda qeyd etdiyimiz "qardaşlıq əhdi" ilə məhdudlaşdırmaq olmaz. Müsəlman ümməti dedikdə, təkcə Mədinədəki deyil, bütün müsəlmanların bir-birləri ilə həmrəy olması başa düşülməlidir. Peyğəmbərimizdən (s.) rəvayət olunan bir hədisdə buyurulur: "Kim "La ilahə illəllah" deyib, Allahdan başqa tanrıları rədd etsə, Allah onun malını və qanını başqalarına haram edər. Bu adamın hesabı da yalnız Allaha aiddir".

İslam coğrafiyasının genişləndiyi ilk vaxtlardan Azərbaycan da bu ərazilərə daxil edilmiş, burada yaşayan əhalinin əksəriyyəti İslam dinini qəbul etmişdir. Bu illər ərzində İslam adətlərinə ölkəmizdə həssaslıqla yanaşılmış, xalqımız tərəfindən gələcək nəsillərə ötürülmüşdür. Hər bir müsəlman azərbaycanlı müsəlman ümmətinin bir parçası hesab edilir.

Xatırladaq ki, Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunlarının Təşkilat Komitəsinin iclaslarında həm Azərbaycan Prezidenti İlham Əliyev, həm də Təşkilat Komitəsinin sədri, Birinci vitse-prezident Mehriban xanım Əliyeva öz çıxışlarında hər bir azərbaycanlının İslami dəyərlərə xüsusi önəm verdiyini xüsusilə vurğulamışlar.

İslam aləminin bir parçası hesab edilən Azərbaycanda əsrlərdən bəri müxtəlif mədəniyyətləri, dini etiqadları, məzhəb və cərəyanları birləşdirən xalqlar, millətlər qarşılıqlı hörmət şəraitində yaşamışlar. Bu ənənə Azərbaycan ərazisində multikulturalizmin, dini tolerantlığın olmasını təsdiq edir. Mədəniyyətlərarası dialoq, birgəyaşayış anlayışlarını özündə birləşdirən multikulturalizm dəyərlərinə Azərbaycanda daim hörmətlə yanaşılmış, tarixin heç bir dönəmində Vətənmizdə dinlərarası, məzhəblərarası və mədəniyyətlərarası qarşıdurma yaranmamışdır. Bu ənənə günümüzdə də aktuallığını itirməyib. Azərbaycanda multikulturalizm sahəsində, dinlərarası münasibətlərin tənzimlənməsində mühum işlər görülməkdədir.

Müstəqillik qazandıqdan sonra xalqın tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyevin apardığı uğurlu siyasət nəticəsində ölkəmiz dünyada nəinki zəngin təbii sərvətlərilə, həmçinin, tolerant və multikultural ənənələri ilə tanınmışdır.

Heydər Əliyev dövlət quruculuğu ilə yanaşı, mədəni irsimizin, mənəvi dəyərlərimizin qayğısına qalmış, dinlərarası dialoqa, multikulturalizmə böyük dəyər vermişdir. Ümummilli Liderin göstərişi ilə bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirilmiş və bu gün də keçirilir. Həmçinin, Bakıda və regionlarda məscid, kilsə, sinaqoq və ziyarətgahlar bərpa olunmuş, yeni ibadət ocaqlarının tikintisi sürətlənərək inanclı insanların istifadəsinə verilmişdir.

Azərbaycanda formalaşan multikultural, tolerantlıq modelini dünya ölkələri üçün nümunə kimi çıxarmaq dövrümüzün aktual məsələsidir. Bu gün müsəlman dövlətləri arasında mövcud olan siyasi boşluqları doldurmaq üçün ən yaxşı vasitə İslamın tövsiyə etdiyi birlik amilidir.

Çünki İslam dini özündə bütün bəşəri gözəllikləri, dəyərləri əks etdirir. Qeyd etdiyimiz kimi Peyğəmbərimiz (s.) də daim vəhdət və birliyi, sevgi və sülhü ümmətinə aşılamışdır. Necə ki, Allah Qurani-Kərimin əl-Hucurat surəsinin 10-cu ayəsində buyurur: "Şübhəsiz ki, bütün möminlər qardaşdır". Məhz bu anlayış müsəlmanlara birlik və bərabərliyi, həmrəyliyi aşılamışdır. İslam dinində din qardaşlığı qan qardaşlığından da önəmli məsələdir. İslam peyğəmbəri (s.) həmrəy olanları cənnətlə müjdələmiş və buyurmuşdur ki, "İman etmədikcə cənnətə girə bilməzsiniz. Birbirinizi sevmədikcə də iman etmiş olmazsınız" (Səhihi-Müslim, İman Kitabı, Hədis: 93).

Ayə və hədislərdən aydın olur ki, möminlər qardaş olsalar, onlar Allahın sevgisinə və onlar üçün hazırladığı cənnətə nail olarlar. Yaxşı, bəs nə üçün indiki müsəlmanların əksəriyyəti İslam dininin buyurduğu səviyyədə qardaş ola bilmir, özləri də hiss etmədən qeyri-müsəlmanlar onları qarşı-qarşıya qoyur, firqələrə bölür və nəhayət, onları istədikləri istiqamətə yönəldə bilirlər? Çünki əksər müsəlmanlar Quran və hədislərdən daha çox dedi-qodulara inanırlar. Yəni, "filan şeyx belə dedi", yaxud "filan alim belə fətva verdi" deyir və buna dair hər hansı bir dəlil-sübutun olduğunu araşdırmırlar.

Yaşadığımız dövrdə müsəlmanlara qarşı olan haqsızlıqların, onların hüquqlarının pozulmasının səbəblərindən biri də məhz aralarında həmrəyliyin olmamasıdır. Hazırki dövrdə İslam dünyası öz sözünü demək istəyirsə, mütləq şəkildə həmrəy olmaq məcburiyyətindədir. Çünki dövr-zaman birlik və dirilik zamanıdır. İndi millətçilikdən, təriqətçilikdən yox, ümmətçilikdən söhbət getməlidir.

Bu birliyi qurmaq üçün bütün İslam aləminin bir liderə ehtiyacı var idi. Bunu Ümummilli Liderin layiqli davamçısı İlham Əliyev bacardı. Bütün müsəlman ölkələrinə birlik və həmrəylik sərgiləyən ölkə başçımız bu ağır, çətin və məsuliyyətli işi öhdəsinə götürərək 2017-ci ili ölkəmizdə "İslam Həmrəyliyi ili" elan etdi, Azərbaycanın təkcə regionda deyil, İslam dünyasında mühüm söz sahibi olmasını təsdiqlədi.

Ölkəmizdə keçirilən IV İslam Həmrəyliyi Oyunları isə Azərbaycan Prezidentinin dünyanın müsəlman ölkələrinə ünvanlanan dəyərli bir çağırışı idi. İslam ölkələrinin liderləri həmin çağırışı lazımınca qiymətləndirdilər və uğurlu nəticə artıq bütün dünyanın gözü qarşısındadır.

Nəticə olaraq qeyd etmək olar ki, dünyada baş verən qlobal hadisələr İslam həmrəyliyini qaçılmaz edir. Bu il ölkəmizdə qeyd olunan "İslam Həmrəyliyi ili" İslam aləminə, bütövlükdə bəşəriyyətə əhəmiyyətli dərəcədə fayda verəcəkdir. Azərbaycanda mövcud olan tolerantlıq mühitinin, multikulturalizmin daha da möhkəmləndirilməsi sahəsində əməli addımlar atılması üçün tam şərait yaradacaqdır. Əminik ki, multikultural dəyərlərin və tolerantlıq ənənələrinin Azərbaycan modeli dünyanın aparıcı ölkələrində də böyük uğur qazanacaqdır. Ölkəmizin İslam aləmində qazandığı nüfuz hələ 2009-cu ildə Bakının İslam mədəniyyətinin paytaxtı elan edilməsində ilə öz əksini tapmışdı. 2016-cı ilin "Multikulturalizm ili" elan olunması, 2017-ci ildə isə IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi, habelə 2018-ci il üçün Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı elan edilməsi Azərbaycanın dünyada, eyni zamanda İslam ölkələri arasında artan nüfuzunun daha da yüksələcəyinə xidmət edəcəkdir.

Samid QULİYEV,
Ləj kənd məscidinin axundu,
ilahiyyatçı-alim.

Aqrar sahənin inkişafı diqqət mərkəzindədir

LƏNKƏRANDA ÇƏLTİK ƏKİNİ DAVAM EDİR

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə əlaqədar qarşıya qoyduğu tapşırıqlara əsasən Lənkəranda da aqrar sahənin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu məqsədlə cari ildə rayonda tərəvəzçiliyin, çayçılığın, sitrusçuluğun, çəltikçiliyin inkişafı üçün müvafiq işlər davam etdirilir.

Hələ orta əsrlərdə Azərbaycan əhalisinin məişət və iqtisadiyyatında əsas yer tutan çəltikçiliyə son vaxtlar rayonumuzda xüsusi diqqət göstərilir. Lənkəranın məhsuldar torpağı, əlverişli iqlim şəraiti məhz burada çəltiyin becərilməsinə hərtərəfli imkan yaradır.

Bu il rayonda 500 hektar sahədə çəltik əkini nəzərdə tutulub. Hazırda 490 hektar sahədə çəltik əkini başa çatdırılıb. Çəltik əkini əsasən rayonun Girdəni, Siyavar, Separadi, Şürük, Veravul, Ürgə, Şıxəkəran, Hirkan, Mamusta və Xolmili kəndlərində aparılıb. Çəltik əkini fermerlər, sahibkarlar və ayrı-ayrı fiziki şəxslər tərəfindən həyata keçirilib. Hazırda Siyavar və Şıxəkəran kəndlərində çəltik əkini davam edir.

YAŞIL ÇAY PLANTASİYALARINDA BİRİNCİ YIĞIM BAŞA ÇATIB

Qeyri-neft sektorunun əsas istiqamətlərindən olan aqrar bölmədə görülmüş məqsədyönlü tədbirlər nəticəsində bu sahənin inkişafı üçün münbit şərait yaradılıb. Bununla bağlı dövlətin götürdüyü strateji xətt cənub bölgəsində, o cümlədən Lənkəranda da ənənəvi sahə olan çayçılığın inkişafına ciddi təkan verib. Rayonda hər il yeni çay təsərrüfatları yaradılır, yeni plantasiyalar salınır.

Qeyd edək ki, hazırda rayonda 568 hektara yaxın çay sahəsi vardır ki, bunun da 200 hektarı məhsuldar sahələrdir.

Rayonumuzdakı mövcud məhsuldar çay sahələrində artıq cari il üçün ilk məhsul yığımı başa çatdırılıb. İndiyə kimi çay plantasiyalarından 108,7 ton yaşıl çay yarpağı tədarük edilib. Məhsul yığımı "Astaraçay" MMC-nin Lənkəran yardımçı təsərrüfatı, "İlyasçay" MMC, "Gilan Tea", "Yaşıl çay" MMC və əhali təsərrüfatları tərəfindən aparılıb. Növbəti məhsul yığımlarında da bol məhsul əldə etməkdən ötrü rayonun çay plantasiyalarında aqrotexniki qulluq və suvarma işləri davam etdirilir.

"YAŞIL ÇAY" FERMER TƏSƏRRÜFATININ KOLLEKTİVİ ÇAYÇILIĞA DÖVLƏT QAYĞISINDAN RUHLANIR

Rayonda birinci çay yığımını uğurla başa vuran təsərrüfatlardan biri də "Yaşıl çay" fermer təsərrüfatıdır. İlk yığım kampaniyasını yüksək keyfiyyətlə və optimal müddətdə başa vurmaq üçün çaybecərənlər səy və bacarıqlarını əsirgəməyiblər.

Qeyri-neft sektorunun inkişafına göstərilən dövlət qayğısı, məhsul istehsalçılarına verilən subsidiyalar çayçılığın inkişafı üçün də geniş imkanlar açıb. Regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramlarında nəzərdə tutulan tədbirlərə müvafiq olaraq son illər Lənkəranda çayçılığın inkişafı istiqamətində bir sıra işlər görülüb, mövcud çay sahələrinin bərpası və yeni çay sahələrinin salınması sahəsində yüksək nəticələr əldə olunub.

İş adamı Araz Yağubovun rəhbərlik etdiyi "Yaşıl çay" fermer təsərrüfatının bu sahədəki fəaliyyəti təqdirəlayiqdir. 2015-ci ildə – "Kənd təsərrüfatı ili"ndə ilk dəfə seçmə üsulu ilə yığım aparan "Yaşıl çay" Fermer Təsərrüfatı MMC-nin sahələrində bu il daha bol məhsul gözlənilir. Ötən il 42 hektardan 90 ton yaşıl çay yarpağı yığan təsərrüfatda bu il də çay yığımı seçmə üsulla aparılıb.

Görülən işlər barədə A.Yağubov bunları bildirdi: "Bu il havaların əlverişsiz keçməsi, xüsusən aprel ayında yağışın yağmaması çay kollarının inkişafını xeyli ləngitdi. Bu səbəbdən bu il yaşıl çay yarpağı yığımı da gecikdi. Aprel ayının sonlarından başlayaraq 61 hektar çay sahəsində suvarmaya start verildi. Bütün plantasiyalarda qapalı suvarma sistemi vasitəsilə yağışvari suvarma həyata keçirildi. Bu işdə rayon melioratorları da təsərrüfata yaxından köməklik göstərdilər. Görülən intensiv aqrotexniki tədbirlər öz bəhrəsini verdi. Hər dəfə çay yarpağı yığılanda sanki həyatımın ən sevincli gününü yaşayıram. Azərbaycanın ən qədim çayçılıq təsərrüfatında bu sahənin yenidən bərpa edilməsi məni çox sevindirir. Bu, dövlət başçısının bizə göstərdiyi yüksək diqqət və qayğısına ən yaxşı töhfəmizdir. Hər il olduğu kimi, bu dəfə də çalışdıq ki, ilk fleşlər diqqətlə yığılsın, kollar zədələnməsin. Yığılan yaşıl çay yarpağı təsərrüfatın nəzdindəki emal sexinə göndərilir. Emal sexində isə zərif fleşlər bir neçə istehsal mərhələsindən keçərək emal edilir və qablaşdırılır ".

Daha sonra A.Yağubov qeyd etdi ki, son illər Lənkəran rayonunda çayçılıq özünün dirçəliş dövrünü yaşayır: "Rəhbərlik etdiyim fermer təsərrüfatında 61 hektarda çay plantasiyası salınıb. Bu il daha 15 hektarda yeni əkin sahələri salmaqla mövcud plantasiyaların həcmini 76 hektara çatdırmağı planlaşdırmışıq. Gələcəkdə isə bu rəqəmin 100 hektara çatdırılması nəzərdə tutulub".

"Prezident İlham Əliyev tərəfindən aqrar sahəyə diqqət, bu sahənin inkişafı ilə bağlı ardıcıl verilən sərəncamlar bizi daha həvəslə işləməyə səfərbər edib. Vergi güzəştlərinin tətbiqi və 2007-ci ildən başlayaraq kənd təsərrüfatında məhsul istehsalçılarına hər il əkin sahəsinə görə subsidiyaların ödənilməsi aqrar bölmənin inkişafına böyük təkan verib. Bütün bunlar onu göstərir ki, Azərbaycanda aqrar bölmənin inkişafı dövlətin iqtisadi siyasətinin əsas hədəflərindən biridir və ölkə rəhbərliyi bu sahəni həmişə diqqət mərkəzində saxlayır. Bu diqqətin nəticəsidir ki, biz bu il İqtisadiyyat Nazirliyindən həm yeni çay əkinlərinin salınması, həm də emal fabriki ilə bağlı "İnvestisiya təşviqi sənədi"ni almışıq. Bu isə təsərrüfatımızın torpaq vergisi də daxil olmaqla bütün vergilərdən tam, həmçinin mənfəət vergisi və gömrük rüsumundan 50 faiz azad olunması deməkdir" – deyə A.Yağubov vurğuladı.

Hazırda yığılan yaşıl çay yarpağı müəssisənin nəzdindəki mini emal sexində emal edilir və qablaşdırılır. Burada yüksək keyfiyyətli "Lənkəran çayı" brendi altında "Gül çayı", "Premium", "Ekstra", "Buket çay", "Narın çay" və "Feyxoa çayı" istehsal edilir. Bu ildən isə təsərrüfatda "Xan çayı", "Zəncəfil çayı", "Tibet çayı" və digər çay növlərinin istehsal edilməsi də planlaşdırılıb.

"Çay sahələrimiz hələ cavandır. Kollar tam məhsuldarlığa bir neçə ildən sonra düşəcək. Bu da növbəti illərdə bizə çay istehsalını dəfələrlə artırmağa imkan verəcək", – deyə Araz Yağubov bildirdi.

İnanırıq ki, Azərbaycan çayının əvvəlki şöhrətini bərpa etməyi qarşısına məqsəd qoyan "Yaşıl çay" fermer təsərrüfatı qazandığı uğurları ilə ölkəmizdə qeyri-neft sektorunun inkişafına öz layiqli töhfəsini verəcək.

Natiqə AĞAYEVA,
Sərraf TALIBOV

"Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi"

ULU ÖNDƏRİN ARZU VƏ İDEYALARI HƏYATA KEÇİR

Xalq yalnız həmrəy olanda güclü olur

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü xalqımızın dünya şöhrətli oğlu, alovlu vətənpərvər, Ümummilli Liderimiz Heydər Əliyevin bir millət kimi dil, əməl və əqidə birliyimizin təmin olunması naminə milli-mənəvi bütövləşməyimizlə bağlı arzusunun təcəssümü oldu. Çünki, zəmanənin gərdişi və taleyin hökmü ilə müxtəlif müharibələr, qanlı soyqırımlar, ağır deportasiyalar, ayrılıq həsrətli sürgünlər və başqa səbəblərdən dünyanın müxtəlif ölkələrinə səpələnmiş 50 milyondan artıq Azərbaycan xalqını bir bayraq altında birləşdirmək ideyasının banisi yalnız Heydər Əliyev kimi qəlbində tükənməz Vətən və millət sevgisi olan bir Öndər ola bilərdi.

Məhz Ümummilli Liderin təşəbbüsü və təklifi ilə 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 31 Dekabrın Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi qeyd olunması barədə qərar qəbul etdi. Həmin gündən etibarən dünyanın hər yerinə səpələnmiş azərbaycanlılar ümumi bir ideya – azərbaycançılıq ideyası ətrafında birləşməyə başladılar.

1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev milli maraqlarımızın strateji məqsədlərinin ana xəttini – azərbaycançılıq ideyasını önə çəkdi. Müstəqillik dövründə milli maraqlara xidmət edən siyasi kursa sadiq qalan Ümummilli Lider Prezident seçilən gündən başlayaraq təkcə Vətəndə yaşayan azərbaycanlılara deyil, bütün dünya azərbaycanlılarına üz tutdu, harada yaşamalarından asılı olmayaraq, bütün azərbaycanlıları Vətənin və xalqın ayrılmaz hissəsi bəyan etdi. Onun gündəlik diqqət və qayğısı ilə dünya azərbaycanlılarının problemləri dövlət siyasəti səviyyəsinə qaldırıldı, xaricdə yaşayan soydaşlarımızın diasporunu formalaşdırmaq, onların Vətənlə əlaqələrinə geniş imkanlar yaratmaq istiqamətində ardıcıl işlər aparılmağa başlandı. Ulu Öndər xarici dövlətlərə səfərləri zamanı həmin ölkələrdə yaşayan soydaşlarımızla şəxsən görüşür, onların keçirdiyi mədəni-kütləvi tədbirlərə qatılır, həmvətənlərimizin diqqətini ölkəmizdə baş verən ictimai-siyasi proseslərə cəlb edirdi.

Vətəndən kənarda yaşayan azərbaycanlılarla əlaqələrin və sıx münasibətlərin vacibliyini nəzərə alan Heydər Əliyevin imzaladığı Fərmana əsasən 2001-ci il noyabrın 9-10-da Bakı şəhərində Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Xalqımızın dahi oğlunun xeyir-duası ilə keçirilən bu qurultayda tarixdə ilk dəfə olaraq bütün dünyaya səpələnmiş azərbaycanlılar bir araya gəldilər. Qurultaydan sonra xaricdə yaşayan azərbaycanlılarla əlaqələri daha sıx şəkildə məqsədyönlü formada qurmaq üçün Heydər Əliyevin 5 iyul 2002-ci il tarixli Fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi (indiki Diasporla İş üzrə Dövlət Komitəsi) yaradıldı. Diasporla dövlət səviyyəsində xüsusi bir işin aparılması xaricdə yaşayan soydaşlarımız tərəfindən razılıqla qarşılandı, onların problemlərinin həllində Vətənə arxalanmalarına inam hissini daha da artırdı. Eyni zamanda, Azərbaycan həqiqətlərini başqa ölkələrdə yaymaq, nüfuzlu xalqların diqqətini bu həqiqətlərə cəlb etmək işini elmi-metodoloji əsaslar üzərində qurmaq mütəşəkkil bir diaspor təşkilatının yaranmasını günün tələbinə çevirdi.

Hazırda bir sıra xarici ölkələrdə Azərbaycan cəmiyyətlərindən, birliklərindən böyük federasiyalar yaradılıb. Belə təşkilatlara Almaniyadakı Azərbaycan Cəmiyyətləri Federasiyasını, Ukrayna-Azərbaycan Konqresini, Ümumrusiya Azərbaycan Konqresini, Rusiya Azərbaycanlılarının Federal Milli-Mədəni Muxtariyyətini, Qazaxıstan Azərbaycanlıları Assosiasiyasını və s. misal göstərə bilərik. Bu təşkilatların fəaliyyəti sübut edir ki, xalq yalnız həmrəy olanda güclü olur.

Xəyallar gerçəyə çevrilir

2006-cı ilin 16 mart tarixində Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının II Qurultayında görülən işlərin müsbət nəticələri diqqətə çatdırıldı, diaspor təşkilatlarımızın lobbiçilik istiqamətində formalaşaraq vahid gücə çevrilməsindən danışıldı, dünya ictimaiyyətinə Azərbaycan həqiqətlərinin çatdırılması yolunda görülən məqsədyönlü işlərin mənzərəsi canlandırıldı, bu barədə ətraflı fikir mübadiləsi aparıldı. Eyni zamanda, ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən KİV-lərdə Azərbaycanla bağlı məqalə və materialların işıqlandırılması, "20 Yanvar" faciəsinin, Xocalı Soyqırımının və 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı həqiqətlərin yer alması bu sahədə xeyli uğurlara nail olunmasından xəbər verir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın rəhbərliyi ilə keçirilən "Xocalıya ədalət!" kampaniyası bütün dünyaya səs salıb. Bu istiqamətdə dünyanın bir sıra aparıcı ölkələrində müxtəlif formatlı tədbirlər, petisiyalar keçirilir, həmin dövlətlərin parlamentləri tərəfindən Xocalı Soyqırımının tanınması ilə əlaqədar qərarlar qəbul edilir, səmərəli işlər görülür.

Dünya Azərbaycanlılarının 2011-ci ilin iyul ayında keçirilən III Qurultayında dövlət başçısı İlham Əliyev demişdir: "Çox şadam ki, dünyada fəaliyyət göstərən Azərbaycan diaspor təşkilatları artıq tam formalaşıb… Diaspor təşkilatlarımız keyfiyyət baxımından da güclənir, onların fəaliyyəti daha da məqsədyönlüdür, daha da təsirlidir. Müxtəlif ölkələrdə bizim diaspor təşkilatları tərəfindən keçirilmiş aksiyalar onu göstərir ki, istənilən yerdə təşkilatlarımız öz fikrini, öz etirazını, yaxud da ki, öz dəstəyini göstərə bilirlər".

Bu gün dünyanın nüfuzlu beynəlxalq təşkilatlarında, həmçinin müxtəlif ölkələrin parlamentlərində və hökumətlərində təmsil olunan siyasət adamları, ictimai xadimləri ilə əlaqələrin qurulması, dövlət rəsmiləri və KİV nümayəndələri ilə münasibətlərin genişlənməsi müşahidə olunur. Bu yaxınlarda dünyasını dəyişmiş ABŞ-ın görkəmli dövlət xadimi və ictimai-siyasi xadim Zbiqnev Bjezinski, rusiyalı tarixçi-politoloq Oleq Kuznetsov, Moldovanın sabiq ombudsmanı Aurelia Qriqoriu və başqalarının Azərbaycan həqiqətlərinin daha geniş sferada yayılmasında göstərdikləri xidmətlər təqdirəlayiqdir.

Ötən ayda Rusiya Azərbaycanlıları Konqresinin lisenziyasının ləğv edilməsi ilə bağlı Rusiya Federasiyası Ali Məhkəməsinin çıxardığı ədalətsiz qərar kəskin hiddətlə qarşılanıb. Bu qərəzli mövqedə erməni barmağının olması açıq-aydın görünür. Azərbaycanın ictimaiyyət nümayəndələri, diaspor təşkilatları, xüsusilə Rusiyada yaşayan həmvətənlərimiz bu qərarın qeyri-obyektivliyinə inanır, Rusiyanın hakim dairələrinin bu məsələyə ədalətlə yanaşacaqlarına ümid edirlər.

Diaspor quruculuğu yeni müstəvidə

Bir çox diaspor üzvlərinin aktiv fəaliyyəti istər yaşadıqları dövlətlərin, istərsə də Azərbaycan dövlətinin daim diqqətindədir. Onların bu fəaliyyətinə dövlət başçıları səviyyəsində qiymət verilir. Qazaxıstanda yaşayan soydaşımız Şahverdi Babayev də öz fəaliyyətinə görə bir sıra orden və medallara layiq görülüb. O, 2015-ci ildə Qazaxıstan Respublikasının Prezidenti



Nursultan Nazarbayev tərəfindən "Qazaxıstan Xalqları Assambleyasının 20 illiyi" yubiley medalı ilə təltif edilib. Ötən il isə Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycan diasporunun inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalına layiq görülüb.

Qeyd edək ki, Lənkəran rayonunun Gərmətük qəsəbəsində doğulub boya-başa çatan Ş.Babayev Qazaxıstan Azərbaycanlıları Assosiasiyası İdarə Heyətinin üzvü, Almatıdakı Altın Orda İş Mərkəzinin baş inzibatçısıdır. O, Qazaxıstanda diasporla bağlı tədbirlərin keçirilməsinə daim öz dəstəyini göstərir. Doğma Gərmətük qəsəbəsinin ərazisində, Bakı-Astara magistral yolunun yaxınlığında onun sponsorluğu ilə inşa edilən "Şah" sarayında və "Mandarin" Uşaq Əyləncə Mərkəzində aztəminatlı ailələrin onlarla üzvü daimi işlə təmin olunub. 2016-cı il iyun ayının 3-də Bakıda keçirilən Dünya Azərbaycanlılarının IV Qurultayının nümayəndəsi olub.

Son iki ildə Prezident Nursultan Nazarbayev və Prezident İlham Əliyev tərəfindən medallarla təltif edilən Şahverdi Babayev uzun illərdir Qazaxıstanda yaşayır. – Bütün bunlar mənim məsuliyyətimi daha da artırır, – deyə iş adamı bildirir. – Bu, iki dövlətin başçısı tərəfindən göstərilən etimaddır. Mən bu etimadı doğrultmaq üçün bundan sonra daha da aktiv şəkildə diasporumuzun güclənməsi, Qazaxıstanın sosial inkişafı, Qazaxıstan Xalqları Assambleyasının rolunun artırılması, eləcə də Azərbaycan və Qazaxıstan arasındakı dostluq münasibətlərinin inkişafı istiqamətində çalışacağam.

"Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda aparılan islahatlar, keçirilən tədbirlər Vətəndən uzaqda yaşayan bir azərbaycanlı kimi məni də ruhlandırır, – Şahverdi müəllim söhbətə davam edir. – Otuz beş il öncə Lənkərandan Qazaxıstana gələrək burada məskunlaşsam da, daim tarixi Vətənimizlə nəfəs alıram. Ümummilli Liderimiz Heydər Əliyevin vəsiyyətlərinə sadiq qalan Prezidentimiz İlham Əliyevin yürütdüyü siyasəti və torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı qətiyyətli mövqeyini ürəkdən bəyənirik. Ali Baş Komandanımızın əmri ilə Mərkəzimizdə çalışan iki mindən çox soydaşımızla Azərbaycanın ərazi bütövlüyünün bərpasına qalxmağa hər an hazırıq."

Dünya Azərbaycanlılarının IV Qurultayının işini yüksək qiymətləndirən Ş.Babayev əlavə edir ki, əsası 2001-ci ildə Ümummilli Lider tərəfindən qoyulan bu ənənənin davamı olaraq hər beş ildən bir keçirilən Dünya Azərbaycanlılarının qurultayları mühüm əhəmiyyətə malikdir. Dünyanın bir çox yerində yaşayan soydaşlarımızın bir araya gəlməsini təmin edən Dünya Azərbaycanlılarının IV Qurultayı da Azərbaycan diasporu üçün tarixi hadisə oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin geniş məzmunlu çıxışının yer aldığı açılış mərasimindən sonra tədbirin panel iclaslarla davam etdirilməsi Qurultay iştirakçıları üçün xüsusi imkanlar yaratdı. Belə ki, panel iclaslarında çıxışlardan sonra qoyulan mövzuların geniş şəkildə müzakirəsi və hər bir iştirakçının bu müzakirəyə qoşula bilməsi imkanı bir çox məsələlərin həllinə mühüm töhfədir. Tədbirin yüksək səviyyədə təşkilinə görə Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbərliyinə və təşkilat komitəsinə təşəkkürümü bildirirəm.

Qurultayda səsləndirilən təklif və tövsiyələrin növbəti qurultaya qədər yerinə yetirilməsi və səsləndirilən nöqsanların öz həllini tapması üçün Azərbaycan diaspor təşkilatları qarşısında mühüm öhdəliklər qoyulduğunu önə çəkən Şahverdi müəllim bildirir ki, müzakirəyə çıxarılan məsələlərin həlli və qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün həm xaricdəki diaspor təşkilatlarımız, həm də hər bir soydaşımız bütün gücünü səfərbər etməlidir ki, diasporumuz daha mütəşəkkil və effektli fəaliyyət göstərsin. Bu istiqamətdə hər bir azərbaycanlını birliyə və həmrəyliyə çağırıram.

Həmsöhbətimiz deyir ki, dünyaya səpələnmiş soydaşlarımız arasında siyasi-iqtisadi, sosial-mənəvi birliyin olması ilə yanaşı, onların qarşısında azərbaycançılıq ideologiyasına əsaslanan bir sıra tarixi vəzifələr durur. Burada Azərbaycan reallıqlarının dünyaya olduğu kimi çatdırılması, eləcə də Vətənə sədaqətlilik kimi meyarlar öz əksini tapıb. Bu amala sadiq qalan xaricdəki diaspor təşkilatlarımız fəaliyyətlərini daha da gücləndirməlidirlər.

Milli diaspor üzvlərinin vəzifəsinə toxunan Ş.Babayev Qazaxıstanda türk xalqlarının birliyi, Qazaxıstan-Azərbaycan ikitərəfli əlaqələrinin inkişafı, mədəni tədbirlər və s. istiqamətdə işlərin görülməsinin vacibliyini xüsusi qeyd edir. "Qazaxıstanda azərbaycanlıların formalaşdırdığı diaspor bu ölkədə sayılıb seçilənlərdəndir. Soydaşlarımız Qazaxıstan iqtisadiyyatının inkişafında, onun mədəni, siyasi həyatında fəal iştirak edirlər. Qazaxıstandakı Azərbaycan diasporu hər iki xalqı birləşdirən özünəməxsus "etnik körpü" rolunu oynayır. Bu da təəccüblü deyil, çünki azərbaycanlılar və qazaxlar qardaş xalqlar olub, ümumi tarixi köklərə malikdirlər. Bizim dillərimiz çox yaxındır. Biz ümumi mədəni irsə malikik".

Qazaxıstanda diasporumuzla səfirlik arasında münasibətlərin ötən illərlə müqayisədə daha da sıxlaşdığını vurğulayan həmyerlimiz səfirliyin Qazaxıstandakı soydaşlarımızın bir araya gəlməsi, gənc diasporun işinin aktivləşdirilməsi istiqamətində təqdirəlayiq işlər gördüyünü diqqətə çatdırdı.

Şahverdi Babayev söhbətimizin sonunda Azərbaycan diasporunun inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalına layiq görüldüyü üçün cənab Prezident İlham Əliyevə bir daha minnətdarlığını bildirdi və hamını dövlət başçımızın ətrafında sıx birləşməyə çağırdı.

İftixar hissi ilə deyə bilərik ki, hazırda möhtərəm Prezidentimiz İlham Əliyevin tükənməz Vətən təəssübkeşliyi, milli maraqlara sədaqətlə xidmət etməsi xalqımızın milli birliyini, hər bir azərbaycanlının Vətən sevgisini bundan sonra daha da gücləndirəcək, bütün soydaşlarımızı onların arxasında Azərbaycan adlı Vətəninin və Azərbaycan adlı qüdrətli dövlətinin durduğuna bir daha inandıracaqdır.

İltifat ƏHMƏDOV,
(Azərbaycan Respublikası Prezidenti Yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqə üçün)

LDU-DA AÇIQ QAPI GÜNÜ VƏ MƏZUN YARMARKASI KEÇİRİLİB

Lənkəran Dövlət Universitetində (LDU) "Məzun-2017" proqramı çərçivəsində açıq qapı günü və məzun yarmarkası keçirilib. Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH) ilə birgə təşkil olunan tədbirin əsas məqsədi tələbə-məzunlara aldıqları ixtisaslar üzrə əmək bazarında olan tələbat haqqında məlumat vermək, işəgötürənlərlə onların bilavasitə qarşılıqlı ünsiyyətini təşkil etmək və bununla da, işəgötürənlərin qısa vaxt ərzində müasir tələblərə cavab verən ixtisaslı kadrların seçiminin aparılmasına imkan yaratmaqdan ibarət olub.

Açıq qapı günündə rayon rəsmiləri, LDU-nun builki məzunları, valideynlər, rayon məşğulluq idarəsinin və işəgötürən sifarişçi təşkilatların nümayəndələri iştirak ediblər. İştirakçıları LDU-nun rektor vəzifəsini icra edən, riyaziyyat elmləri doktoru, professor Natiq İbrahimov salamlayaraq, bu elm ocağı barədə onlara ətraflı məlumat verib, tədrisin maddi-texniki bazasının yenilənməsi, keyfiyyətli mütəxəssislərin hazırlanması istiqamətində son bir ildə görülmüş işlərdən söz açıb. Əmək yarmarkasının keçirilməsinin vacibliyini qeyd edən professor N.İbrahimov belə tədbirlərin bu il LDU-nu bitirən 500-ə qədər məzuna iş probleminin həllində dəstək olacağına əminliyini ifadə edərək, əmək yarmarkalarının gənclərin məşğulluğunun təminində əhəmiyyətli rol oynadığını, işçi ilə işəgötürən arasında operativ körpü olduğunu bildirib.

Lənkəran ŞİH başçısının birinci müavini Möhübbət Babayev, İcra başçısının sosial-iqtisadi məsələlər üzrə müavini Xalid Rəhimov, Lənkəran Rayon Məşğulluq Mərkəzinin direktoru Rahib Quliyev, mebel emalı və satışı üzrə ticarət mərkəzinin direktoru Elnur Əliyev, Bakı Biznes Tədris Mərkəzinin Lənkəran nümayəndəliyinin rəhbəri Firdovsi Axundov, "Gilan Holdinq"in insan resursları şöbəsinin rəhbəri Coşqun İmanquliyev və digərləri çıxışlarında tədbirin böyük əhəmiyyətindən bəhs edərək təklif və rəylərini bildiriblər.

Əmək yarmarkasına təkcə Lənkəranda yox, ümumiyyətlə, cənub bölgəsinin digər rayonlarında fəaliyyət göstərən 27 dövlət və özəl müəssisə 140 boş (vakant) iş yeri çıxarıb. Təklif olunan boş (vakant) yerlərə builki məzunlardan 270 nəfər iştirak ərizəsini təqdim edib.

Tədbir iştirakçıları belə bir tədbirin təşkilinə, yuxarı kurslarda təhsil alan, xüsusən ali təhsil ocaqlarını bitirərək əmək fəaliyyətinə başlamaq ərəfəsində olan məzunlarla işəgötürənlər arasında ilkin əlaqələrin qurulmasına, onlarda müasir əmək bazarı barədə dolğun məlumat yaratdıqlarına görə təşkilatçılara öz təşəkkürünü bildiriblər.

Qeyd edək ki, bu, LDU-da təşkil olunan ilk açıq qapı günü və əmək yarmarkasıdır.

Ağaddin BABAYEV

XATİRƏLƏRDƏ YAŞAYANLAR

ÖMÜR VƏFA ETMƏDİ

Xalq arasında belə bir deyim var: "Müəllim o kəs deyil ki, öyrədir, o kəsdir ki, ondan öyrənirlər". Bu məsələyə alman filosofu İ.Hötenin münasibəti isə belə idi: "Kimlərdən öyrəniriksə, düzgün olaraq bizim müəllimlərimiz adlandırılır, lakin hər öyrədən bu ada layiq deyil. Bu ada layiq olmaq üçün təhsildə kamilliyə çatmaq lazımdır". Haqqında söhbət açacağımız Səxavət müəllim də məhz təhsildə kamilliyə can atan, öz sahəsinə dərindən bələd olan bir pedaqoq idi. Daim öz üzərində işləyirdi.

Dərin bilik, geniş dünyagörüşü şagirdlər qarşısında elmin, biliyin, fənnin, tədris prosesinin cəzbedici qüvvəsini açа bilmək üçün vacibdir. Qısa ömür yolunun yarısından çoxunu (26 ilini) pedaqoji fəaliyyətə sərf edən dəyərli insan, 1966-cı il oktyabrın 16-da Lənkəran rayonunun Diryan kəndində anadan olan Tağıyev Səxavət Maşallah oğlu belə müəllimlərdən idi. İlk ibtidai təhsilinə 1973-cü ildə Bakıda Makarenko adına rus dili təmayülü məktəbdə başlayıb, 1984-cü ildə həmin məktəbi əla qiymətlərlə başa vurub. 1984-1986-cı illərdə həqiqi hərbi xidmətdə olub.

1989-cu ildə M.F.Axundov adına Rus dili və Ədəbiyyatı İnstitutunun qiyabi şöbəsinə qəbul olan S.Tağıyev elə birinci kursdan Gəgiran kənd tam orta məktəbində rus dili müəllimi kimi pedaqoji fəaliyyətə başlayıb. 4 il bu məktəbdə müəllim işlədikdən sonra pedaqoji fəaliyyətinə Diryan kənd tam orta məktəbində davam edib, ömrünün sonuna qədər bu məktəbdə işləyib. Səxavət müəllim hər iki məktəbdə işlədiyi müddətdə, sözün həqiqi mənasında, həm savadı, həm də əxlaqi keyfiyyətlərinə görə pedaqoji kollektivin, şagirdlərin və valideynlərin hörmətini qazanıb, öz işinə həmişə vicdanla yanaşıb.

O, dəyərli müəllim olduğu kimi, həm də qayğıkeş, övladları yolunda şam kimi yanan mehriban ata və ailə başçısı idi. 4 övlad – 2 oğul, 2 qız atası, 4 nəvəsi olan S.Tağıyev şagirdləri kimi övladlarına da həmişə bu dünyada dürüst və alnıaçıq yaşamağı öyrətmişdi.

Dəyərli müəllim, qayğıkeş ata və ailə başçısı Səxavət Tağıyev 13 may 2017-ci ildə qəflətən ürək tutması nəticəsində dünyasını dəyişdi. Bu, həm onun ailə üzvləri, həm kollektivimiz, həm də qohumları və onu istəyənlər üçün çox ağır bir itki oldu.

Ömrünün çiçəkləndiyi bir dövrdə, 51 yaşında həyata vaxtsız vida deyən, hamımızın sevimlisi Səxavət müəllimə Allahdan rəhmət diləyir, işlədiyi pedaqoji kollektivimiz adından mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk.

Eldar QULİYEV,
Diryan kənd tam orta məktəbin müəllimi

İdman

HƏMYERLİMİZ BEYNƏLXALQ TURNİRDƏ QIZIL MEDAL QAZANIB

Bu günlərdə Bakı İdman Sarayında Azərbaycan Güləş Federasiyasının Kuboku uğrunda ənənəvi beynəlxalq turnir keçirilib.

Turnirdə "Təhsil" Respublika İdman Mərkəzinin Lənkəran filialının yetirməsi, rayonumuzun Separadi kənd sakini, sərbəst güləşçi Mahir Məmmədzadə də mübarizə aparıb. Yeniyetmələr arasında Avropa çempionu və Dünya çempionatının gümüş mükafatçısı olan idmançı beynəlxalq turnirdə 50 kq çəki dərəcəsində yarışıb.

Həmyerlimizin beynəlxalq turnirdə çıxışı uğurlu alınıb. Belə ki, bütün rəqiblərini məğlub etməkdə çətinlik çəkməyən Mahir Məmmədzadə fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq qızıl medal qazanıb.

Qalib və mükafatçılar Azərbaycan Güləş Federasiyası tərəfindən medal, diplom və pul mükafatları ilə təltif olunublar.

Turnirin qalibləri milli komandanın tərkibində qarşıdan gələn beynəlxalq yarışlarda mübarizə aparmaq şansı əldə ediblər.

Qeyd edək ki, Beynəlxalq turnirdə ölkəmizlə yanaşı, Tacikistan, Ukrayna, Özbəkistan, Latviya, Rusiya, Türkiyə, İran, Gürcüstan, Qazaxıstan və Belarus pəhləvanları da çıxış ediblər.

Komanda hesabında Azərbaycan birinci, İran komandası ikinci, Gürcüstan komandası isə üçüncü olub.

Təbrik edirik!

Masallı rayonunda çıxan "Yeni həyat" qəzetinin Baş redaktoru Əlihüseyn Şükürova

Çox hörmətli və dəyərli dostumuz Əlihüseyn müəllim!

Başda Siz olmaqla "Yeni həyat" qəzetinin yaradıcı kollektivini qəzetin 85 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edirik. Fəaliyyətiniz dövründə yaradıcı kollektiviniz zamanın sərt sınaqlarından alnıaçıq, üzüağ çıxıb. Üzləşdiyiniz çətinliklər, qarşılaşdığınız böhranlı vaxtlar sizi qorxutmayıb, tutduğunuz düzgün, şərəfli yoldan – Azərbaycana layiqincə xidmət etməkdən çəkindirməyib. Yaradıcı kollektiviniz həmişə, hər şeydən öncə Azərbaycan jurnalistikasına şərəflə xidmət edib, Azərbaycan jurnalistikasının milli ənənələrinə sadiq qalıb. "Yeni həyat" qəzeti bu gün də Masallıda baş verən ictimai-siyasi, mədəni hadisələrə biganə qalmayaraq, onların dolğun şəkildə gündəmə gətirilməsi, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin davamlı diqqət və qayğısı ilə Masallı rayonunun sosial-iqtisadi inkişafı sahəsində görülən genişmiqyaslı işlər barədə məlumatların rayon ictimaiyyətinə çatdırılması üçün əlindən gələni əsirgəmir. Biz sizin yaradıcı kollektivinizin zəhmətkeş, savadlı, səmimi bir kollektiv olduğunu bilirik, qəzetin ətrafında ləyaqətli, peşəkar qələm dostlarımızın birləşdiyini görürük. Qəzetin yaradıcı, istedadlı, jurnalist peşəsinə sadiq kollektivə malik olması onun nüfuzunu rayonun hüdudlarından uzaqlarda da artırır.

Hörmətli Əlihüseyn müəllim! Əziz "Yeni həyat"çılar!

Sizi bir daha 85 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, çətin və şərəfli fəaliyyətinizdə yeni-yeni yaradıcılıq uğurları arzulayırıq. Qoy yolunuz nurlu, qələminiz iti, qələbəniz əbədi olsun!

Hörmətlə,

"Lənkəran" qəzetinin yaradıcı kollektivi adından Baş redaktor: Əlimərdan ƏLİYEV

İYUN AYININ QEYRİ-İŞ GÜNLƏRİ

Bu il Ramazan bayramı və Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü eyni günə təsadüf etdiyindən əlavə qeyri-iş günü olacaq.

15 İyun – Milli Qurtuluş Günü iş günü hesab edilmir.

Nazirlər Kabinetindən bildirilib ki, 26 İyun - Silahlı Qüvvələr Günü, 26-27 iyun Ramazan bayramı günü münasibətilə qeyri-iş günüdür. İki bayram eyni günə təsadüf etdiyindən iyunun 28-i, yəni çərşənbə günü də istirahət günüdür.

Beləliklə, hər iki bayram münasibətilə şənbə və bazar günləri də daxil olmaqla, 5 gün (24,25, 26, 27, 28 iyun) qeyri-iş günü elan olunur.

17 iyun Tibb işçiləri günüdür

ZƏKA

Bu yaxınlarda yolum Lənkəran Mərkəzi Rayon Xəstəxanasına düşmüşdü. Ultrasəslə müayinə kabinetinin qarşısında həmkəndlim Etibar Səfərovla rastlaşdım. Hal-əhval tutduqdan sonra öyrəndim ki, o, daxili orqanlarını, xüsusilə böyrəklərini USM aparatı ilə müayinədən keçirmək üçün həkim-radioloq Zəka Cəfərovun qəbuluna gəlib. Ayaqüstü söhbət zamanı Etibarla birlikdə növbədə dayanan bir neçə pasiyent mətbuat işçisi olduğumu bilib məni söhbətə tutdu. Tamilla Əliyeva (İstisu qəsəbə sakini):

– Mən keçən il USM aparatında qara ciyərimi yoxlatdırdım. Zəkanın təyin etdiyi diaqnoz barədə yaxın qohumlarıma danışanda məsləhət bildilər ki, Bakıya gedim, daha mötəbər klinikalardan birində təkrar USM-dən keçim. Çox təkiddən sonra razılaşdım. Bakıda olanda çoxillik təcrübəyə malik USM həkimi Zəkanın yazdığı diaqnozu təsdiqləyərək dedi:

– Qızım, nahaq yerə o qədər yolu özünə əziyyət verib Bakıya gəlmisən. Sənin diaqnozun tamamilə düzgündür.

Son bir il ərzində Zəkanın yanına gəlib təkrar müayinədən keçmişəm. Onun təyin etdiyi diaqnoz əsasında həkim terapevtin müalicəsindən sonra indi özümü yaxşı hiss edirəm. Bu gün yenidən USM-dən keçdim və əvvəlki xəstəlikdən əsər-əlamətin olmadığını öyrəndim. Zəkaya və müalicə həkiminə minnətdarlığımı sözlə ifadə edə bilmirəm.

Etibar Səfərov (Aşağı Nüvədi qəsəbə sakini):

– Böyrəklərimi müayinə etdirərkən sol böyrəyimdə bir neçə daşın olduğu aşkarlandı. Artıq müntəzəm müalicənin xeyrini görürəm. Zəka həkimin diaqnozu dəqiq təyin etməsi müalicənin düzgün aparılmasında mühüm rol oynadı.

Digər xəstələr də Zəkanın təcrübəsindən, peşəkarlığından ağızdolusu danışdılar, gənc həkimə təşəkkürlərini bildirdilər.

Doğrusu, mən də onun haqqında eşitmişdim. Maraq üstün gəldiyindən Zəka ilə daha yaxından tanış olmaq qərarına gəldim.

Öyrəndim ki, o, 1980-ci il mart ayının 21-də Astara rayonunun Pensər kəndində anadan olub. 1997-ci ildə Pensər kənd 2 saylı tam orta məktəbini bitirdikdən sonra N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universitetinə daxil olub, 2003-cü ildə ali təhsilini başa vurub. M.Qədirli adına Mərkəzi Hövzə Xəstəxanasında funksional diaqnostik (2003-2004), Lənkəran şəhər "Çinar-Rus" MMC-də həkim funksional diaqnostik (2004-2006), Lənkəran Müalicə-Diaqnostika Mərkəzində funksional diaqnostik (2006-2008) vəzifələrində işləyib. 2008-ci ildən indiyədək Lənkəran Mərkəzi Rayon Xəstəxanasında həkim-radioloq işləyir.

MRX rəhbərliyi, həmkarları, çiyin-çiyinə çalışdığı tibb işçiləri Z.Cəfərov haqqında yalnız xoş sözlər dedilər, onun öz işinə son dərəcə məsuliyyətlə yanaşdığını söylədilər. O, daim çalışır, mütaliə edir, müasir tibb elminin sirlərinə, texnoloji yeniliklərə səylə yiyələnir və işində tətbiq edir. Məhz bunun nəticəsidir ki, təyin etdiyi diaqnozlar, bir qayda olaraq, təsdiqini tapır. Din-iman adamı olan Zəka ona müraciət edənlərlə həmişə mehriban davranır, hamıya faydalı məsləhətlər, ürək-dirək verir, düzgün istiqamətləndirir.

Z.Cəfərov hələ gəncdir, ömrün 37-ci baharını yaşayır. Çoxsaylı pasiyentlərinin xahişini nəzərə alıb onların dili ilə deyirik:

– Sağ ol, həkim, biz sənə minnətdarıq!..

İ.MƏHƏRRƏMOĞLU

ƏZİZ OXUCULAR!

2017-ci ilin II yarımili üçün "Lənkəran" qəzetinə abunə kampaniyası davam edir.

ALTI AYLIQ ABUNƏ QİYMƏTİ 10 MANATDIR

Əlavə məlumat almaq üçün Mətbuatyayımının Lənkəran rayon şöbəsinə (02525) 5-24-99, (02525) 5-27-61 və redaksiyamıza (02525) 5-35-05, (02525) 5-35-49 nömrəli telefonlara zəng edə bilərsiniz.

"Lənkəran" qəzeti

ÍTMÍŞDÍR

Lerik rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 4 iyun tarixli 41 saylı qərarı ilə Lerik rayon sakini **Nəzərov Ağamir Şahüseyn oğlunun** adına verilmiş torpağa mülkiyyət hüququna dair dövlət aktı (JN-0025, kod:80318058) itdiyi üçün etibarsız sayılır.

Lənkəran rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 18 iyun tarixli 11 saylı qərarı ilə Liman şəhər sakini **Əliyeva Reyhan Ağadadaş qızının** adına verilmiş torpağa mülkiyyət hüququna dair dövlət aktı (JN-1154) itdiyi üçün etibarsız sayılır.

Baş redaktor Əlimərdan ƏLİYEV

TƏSİSÇİLƏR: **Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının aparatı və "Lənkəran" qəzetinin yaradıcı kollektivi**

HESAB NÖMRƏMİZ: **AZ30AIIB33010019443860238138 VÖEN 2600244411 Kapital Bankın Lənkəran şöbəsi lisenziya № V 343 İndeks: 66920**

ÜNVANIMIZ: **Lənkəran şəhəri, Heydər Əliyev prospekti, 3 (4-cü mərtəbə) Telefonlar: 255-35-05, 255-35-49 E-mail: lenkeranqezeti@mail.ru Buraxılışa məsul İltifat Əhmədov**

Qəzet redaksiyanın kompüter mərkəzində yığılmış və səhifələnmiş, Bakıda "Azərmedia" MMC-nin mətbəəsində çap olunmuşdur. Tiraj: 2500